MÖHTƏŞƏM 20 İL

2003 2023

Xalqının inamını doğruldan rəhbər

Özünəməxsus inkişaf yolu ilə son onilliklərdə qlobal iqtisadi böhranın, siyasi kataklizmlərin doğurduğu təhdidləri inamla dəf edən müstəqil Azərbaycanın yeni inkişaf mərhələsinin spesifikliyi qarşıda duran məqsədlərin yeni dövrün çağırışlarına adekvat olması ilə şərtlənir. Bu reallıqda milli prioritetlərin dəqiq müəyyənləşdirilməsi, eyni zamanda ölkənin mövcud potensialının milli ideya səviyyəli məqsədlərin realizəsi məqsədilə səfərbər edilməsi zərurəti onunla şərtlənir ki, xalqımız artıq ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail olub.

Xüsusi vurğulamaq lazımdır ki, müstəqillik illərində respublikamızda demokratik cəmiyyətin təməl prinsiplərindən biri kimi fərdiyyətçiliyə əsaslanan iqtisadi münasibətlər sistemi formalaşıb, xüsusi mülkiyyət formaları genişlənib, ictimai münasibətlər sistemində antoqonizmi aradan qaldıraraq sabitliyə təminat yaradan orta sahibkarlar sinfinin mövqeləri möhkəmlənib. Respublikamızda adambaşına düşən ümumi daxili məhsulun 7000 manata yüksəlməsi bir tərəfdən ölkənin zəngin iqtisadi resurslarının sosial rifah məqsədinə yönəldilməsi, digər tərəfdən isə demokratik proseslərin ictimai şüurda mənimsənilməsi baxımından geniş imkanlar açıb. Azərbaycan yeni geosiyasi reallıqların diktə etdiyi vəzifələrin həyata keçirilməsi prosesində öz zəngin imkanlarından səmərəli yararlanır, insan və təbii resurslarına, sosial-iqtisadi bazasına, yerləşdiyi ərazinin təbii-coğrafi şəraitinə güvənərək müasir cəmiyyət modeli formalaşdırmağa çalışır.

Fransız sərkərdəsi Napoleon Bonapartın sözüdür: *"Siyasətdə dahilik mümkün olanla mümkün olmayanı fərqləndirə bilmək qabiliyyətidir"*. Bu kontekstdən yanaşdıqda, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı - Azərbaycan Prezidenti İlham Əliyevin dünyanın yeni iqtisadi, siyasi münasibətlər sisteminə dərindən bələd olan praqmatik və qətiyyətli lider olması bir daha real təsdiqini tapır. Dövlətə rəhbərlik missiyasını xalqına səmimi sevgi, eyni zamanda əzm və qətiyyətlə reallaşdıran cənab İlham Əliyevin xarizmatik keyfiyyətləri, idarəçilik səriştəsi, praqmatizmi, siyasi proseslərin inkişaf axarını düzgün müəyyənləşdirmək, ictimai rəyə təsir göstərmək, sosial sifarişə əsaslanan qərarlar qəbul etmək bacarığı, müasir dünya nizamının çağırışlarına adekvat diplomatiya yürütməsi ötən 20 ildə dayanıqlı milli inkişafı şərtləndirən vacib amillər sırasında yer alıb. 2003-cü ilin prezident seçkilərində Heydər Əliyev siyasi kursuna etimad göstərən, Ümummilli Liderin ən layiqli siyasi davamçısına səs verən müdrik xalqımız Azərbaycan dövlətinin nəinki davamlı uğurlarına, eyni zamanda qlobal problemlərinin həllinə zəmin yaradıb.

2003-cü ilin oktyabrından ölkəyə inamla rəhbərlik edən Azərbaycan Prezidenti İlham Əliyevin müasir hüquqi və demokratik dövlətin, sivil vətəndaş cəmiyyətinin formalaşdırılması, uzun illər ərzində üzləşdiyimiz işğal faktının aradan qaldırılması baxımından qarşıda müəyyənləşdirdiyi milli ideya səviyyəli hədəf güclü iqtisadiyyatın, qüdrətli dövlətin yaradılması olub. Dövlət başçısının iqtisadi-siyasi modernləşməni, hüquqi və demokratik islahatları davamlı, sonu görünməyən proses kimi dəyərləndirməsi isə yeni elmi yanaşma kimi diqqəti cəlb edib: *"Biz gələcəyə baxmalıyıq. Bizi gələcəkdə nələrin gözlədiyi bizdən asılıdır. Azərbaycan xalqından asılıdır. Biz seçimimizi etmişik. Azərbaycan artıq müasir ölkədir. Ancaq müasirləşmənin limiti, hüdudları yoxdur. Bu, əbədi bir prosesdir, sonsuz bir prosesdir"*.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 ildə iqtisadi sahədə həyata keçirilən islahatların əsas məzmununu iqtisadi cəhətdən güclü və müstəqil milli şirkətlərin yaradılması, insanların biznes təşəbbüskarlığının, özünüifadə və özünütəsdiq imkanlarının artırılması kimi ümdə məsələlər təşkil edib. Bu məqsədlə dövlət idarəetmə sistemində institusional xarakterli islahatların həyata keçirilməsini təmin edən, iqtisadi inkişaf üçün etibarlı zəmin hazırlayan, qanunçuluğu, hüquq qaydalarını möhkəmləndirən Prezident İlham Əliyev demokratiyanı üstqurum kimi dəyərləndirərək onun bazisində, ana axarında iqtisadiyyatın dayandığını böyük müdrikliklə vurğulayıb. "Müasir dövlət, güclü iqtisadiyyat, yüksək sosial rifah" prinsipini önə çəkən iqtisadi siyasət sivil və inkişaf etmiş cəmiyyət quruculuğu sahəsində mühüm uğurların əldə olunmasına imkan yaradıb.

Ötən əsrə tarixi ekskurs etsək, görərik ki, keçmiş ittifaq zamanı qazanılan iqtisadi inkişafın səviyyəsini çar Rusiyasının 1913-cü ildə əldə etdiyi yüksək makroiqtisadi göstəricilərlə müqayisə edir, paralellər aparırdılar. Bu kontekstdən əminliklə demək olar ki, onilliklər, hətta yüzilliklər sonra belə Azərbaycanın çağdaş tarixinin qələmə alınması, hadisələrin obyektiv dəyərləndirilməsi zamanı Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövrü möhtəşəm salnamə kimi tədqiq ediləcək, öyrəniləcəkdir.

Dövlət başçısı İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinin ən mühüm göstəricisi, çağdaş tariximizə qızıl hərflərlə yazılmış böyük uğuru isə müstəqil Azərbaycanın üzləşdiyi işğal faktının 2020-ci ildə aradan qaldırılması, eləcə də bu ilin 19-20 sentyabrında keçirilmiş lokal antiterror tədbirləri ilə suverenliyimizin tam bərpası, Ermənistanın tarixi ərazimizdə - Qarabağda formalaşdırdığı separatçı rejimin mövcudluğuna son qoyulmasıdır. Azərbaycan bu tarixi uğuru ilə nəinki ədaləti, eyni zamanda beynəlxalq hüququ, BMT-nin kağız üzərində qalmış 4 qətnaməsinin icrasını təmin edib, Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıq formalaşdıraraq şərtlərini diktə etmək imkanı əldə edib.

Xalqının etimadını qazanmaq istəyən siyasi lider məqsəd və hədəflərini bəyan etməklə yanaşı, onların praktik reallaşdırılması mexanizmlərini də açıqlayır, eyni zamanda hər bir fərdin mənafeyinə hesablanmış islahatlar kursu ilə davamlı inkişafa təminat yaradır. 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində xalqının ciddi dəstəyi ilə növbəti dəfə inamlı qələbə qazanan cənab İlham Əliyev Milli Məclisdə keçirilmiş andiçmə mərasimində deyib: *"...Son 15 il ərzində kifayət qədər uğurlar, nailiyyətlər var. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var...Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var"*.

2003-cü ildən ötən dövrün təhlili fonunda demək mümkündür ki, ölkədə demokratik proseslərin iqtisadi islahatlara adekvat şəkildə genişləndirilməsi milli inkişaf modelinin mahiyyətində yer alır. Dövlət başçısı İlham Əliyev ümumi daxili məhsulun, milli gəlirin artımını təmin etmədən, vətəndaşların təşəkkür tərzində ciddi dəyişikliklərə nail olmadan, maddiləşən işgüzar fəallığa zəmin yaradan əlverişli biznes mühiti formalaşdırmadan, insanlarda qanunlara riayət vərdişləri aşılamadan, hüquqi bilik səviyyəsini yüksəltmədən modernləşmə mərhələsinə keçidin mümkünsüzlüyünü yüksək entuziazmla diqqətə çəkib. Ölkə rəhbərinin siyasi iradəsi, qətiyyətli addımları ictimai-siyasi sabitliyin qorunub saxlanılmasını, dövlət idarəçiliyinin səmərəli təşkilini, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyənləşdirilməsini, davamlı xarakter daşıyan islahatların hər bir fərdin real ehtiyaclarının ödənilməsini və son nəticədə Azərbaycanın qüdrətli ölkəyə çevrilməsini təmin edib.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyinin ən parlaq nəticəsi həm də ondan ibarətdir ki, Azərbaycan bu gün, sözün əsl mənasında, müstəqil siyasət yürüdür, dövlətimizin öz siyasi dəstxəti, dövlətçilik siması, inkişaf yolu formalaşıb. Ölkə iqtidarının milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, səmərəli diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti milli müstəqilliyin praktik şəkildə gerçəkləşməsini təmin edib.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi islahatların həyata keçirilməsi üçün münbit şəraitin yaradılması, milli iqtisadiyyatın bazar münasibətləri əsasında inkişafına konstitusion təminatın verilməsi, yeni neft və qaz müqavilələrinin imzalanması, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlbi, ölkəmizin beynəlxalq əhəmiyyətli nəqliyyat-kommunikasiya layihələrinin reallaşmasında lokomotiv dövlət kimi çıxış etməsi məhz Prezident İlham Əliyevin əzmkar fəaliyyəti, strateji düşünmək qabiliyyəti nəticəsində mümkün olub. Dövlət başçısı böyük müdrikliklə ilk gündən bəyan edib ki, siyasi və demokratik islahatların davamlı şəkildə aparılmadığı hansısa dövlətin iqtisadi sahədə davamlı və yüksək nəticələr əldə etməsi, beynəlxalq arenada layiqli yerini tutması, insan hüquqlarının təminatı sahəsində mühüm irəliləyişlərə nail olması mümkün deyildir.

Əgər ötən əsrin 90-cı illərində müstəqil Azərbaycan üçün demokratikləşmə tendensiyasının əsas məqsədi totalitar siyasi sistemin elementlərindən xilas olaraq yeni siyasi sistemə keçid idisə, son 20 ildə qarşıda duran hədəflər əhəmiyyətli dərəcədə dəyişib. Bu dövrdə proses daha çox dövlətin siyasi, iqtisadi, sosial, mədəni həyatının modernləşdirilməsi, əhalinin maarifləndirilməsi, təfəkküründə və vərdişlərinin tədricən dəyişdirilməsi, ictimai davranış normalarının yeniləşməsi yolu ilə həyata keçirilib.

"Siyasətimizin əsasında insan amili dayanır" deyən dövlət başçısı İlham Əliyev vətəndaşların qanuni maraq və mənafelərinin təminatına xüsusi diqqət ayırıb. Məhz bunun nəticəsi kimi ötən 20 ildə məhkəmə-hüquq sisteminin, ədliyyə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi, yeni dövrün tələblərinə uyğunlaşdırılması həyata keçirilən islahatların vacib istiqamətini təşkil edib. Bu istiqamətdə ilk mühüm addımlardan biri də 2004-cü ildə "Məhkəmə-Hüquq Şurası haqqında" qanunun qəbulu və həmin qanun əsasında Məhkəmə-Hüquq Şurasının yaradılması olub.

Dövlət başçısının 19 yanvar 2006-cı il tarixdə imzaladığı və Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsinə xidmət edən fərmanı regionların sosial-iqtisadi inkişafı tədbirlərinin tərkib hissəsi olaraq bölgələrdə yeni apellyasiya və iqtisad məhkəmələrinin yaradılmasını, hakimlərin sayının artırılmasını, vətəndaşlara göstərilən hüquqi yardımların keyfiyyətinin yaxşılaşdırılmasını və digər mühüm tədbirləri təmin edib. 2006-cı ildə respublika apellyasiya və iqtisad məhkəmələrinin əvəzinə 6 regional apellyasiya, habelə əlavə 3 yerli iqtisad məhkəməsi təşkil edilib. Fərman əsasında həmçinin Ədliyyə Akademiyası yaradılıb, Hakimlərin Etik Davranış Kodeksi hazırlanaraq təsdiqlənib, məhkəmələrdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, məhkəmə təcrübəsində nəzərə alınması təmin olunub, hakimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilib.

Məhkəmələrlə bağlı qanunvericiliyə 22 iyun 2010-cu il tarixli dəyişikliklər, eləcə də sistemin müasirləşdirilməsi məqsədilə dövlət başçısının 2010-cu il 15 iyul və 9 avqust tarixlərdə imzaladığı fərmanlar ədalət mühakiməsinin səmərəliliyinin artırılması baxımından son dərəcə əhəmiyyətli olub. Regionlarda yaşayan əhalinin məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması baxımından əlavə dörd bölgədə ağır cinayətlər, habelə dövlət orqanları tərəfindən insan hüquqlarına ciddi əməl olunmasının təmini məqsədilə yeddi bölgədə inzibati-iqtisadi məhkəmələrin yaradılması xüsusilə əhəmiyyətli olub.

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanı isə ədliyyə və məhkəmə sistemində islahatların müasir çağırışlara uyğun davam etdirilməsinə imkan verib, o cümlədən elektron məhkəmənin tətbiqi ilə bağlı təşkilati işlərin yekunlaşdırılmasını, onun funksionallığının artırılmasını, fiziki və hüquqi şəxslərin bu sistemdən istifadəsinin təşviqini şərtləndirib. Fərman əsasında ötən 4 ildə müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsinin formalaşdırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, müvafiq infrastrukturun yenilənməsi işlərinin davam etdirilməsi, məhkəmə icraatında müasir informasiya texnologiyalarından hərtərəfli istifadə edilməsi və digər mühüm məsələlərin həll olunması istiqamətində zəruri tədbirlərin görülməsi mümkün olub. Fərmanla həmçinin hakim ştatlarının sayının 200 ştat vahidi artırılması, ixtisaslaşdırılmış kommersiya məhkəmələrinin, özəl ekspertiza institutunun yaradılması təmin edilib.

Azərbaycan Respublikası insan hüquq və azadlıqlarına dair çoxsaylı beynəlxalq müqavilələrə tərəfdar çıxaraq, yurisdiksiyası daxilində insan hüquq və azadlıqlarının təmin edilməsi öhdəliyini üzərinə götürüb. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiqlənmiş milli fəaliyyət proqramları bu baxımdan xüsusilə əhəmiyyətli olub. 28 dekabr 2006-cı il tarixli "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" sərəncam ölkədə insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində daha qətiyyətli və prinsipial addımların atılmasına imkan yaradıb.

Dövlət başçısının müvafiq fərman və sərəncamları ilə 18 iyun tarixinin Azərbaycanda "İnsan Hüquqları Günü" elan olunması, eyni zamanda Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına və mediaya dövlət dəstəyi konsepsiyalarının imzalanması, dövlət dəstəyi mexanizmlərinin müəyyən olunması bu istiqamətdə atılan mühüm addımlar kimi qeyd olunmalıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan Hüquqları sahəsində Milli Fəaliyyət Proqramı" isə bu istiqamətdə islahatların keyfiyyətcə yeni mərhələdə uğurlu davamına təminat yaratdı. Proqram normativ hüquqi bazanın təkmilləşdirilməsi; əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi; dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi; insan hüquqları sahəsində tədris; elmi-analitik və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi; insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq; Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi; monitorinqi və qiymətləndirilməsi kimi vəzifələrin həlli istiqamətində mühüm tədbirləri özündə ehtiva edir.

Ötən 20 ilin diqqətəlayiq hüquqi islahatları fonunda 2009-cu və 2016-cı illərdə Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsini nəzərdə tutan ümumxalq referendumlarının keçirilməsini xüsusi vurğulamaq lazımdır. 2009-cu ilin ümumxalq referendumunda ciddi ictimai dəstək almış yeniliklər hüquqi baxımdan Konstitusiyanın bir çox normalarını yeni dövrün tələblərinə uyğunlaşdırmaq məqsədi daşıyaraq insan və vətəndaş hüquq və azadlıqlarının təmini sahəsində dövlətin məsuliyyətini artırıb, onun üzərinə bir sıra yeni hüquqi öhdəliklər qoyub. Azərbaycan Konstitusiyasına edilən əlavə və dəyişikliklər yeni dövrün tələblərindən irəli gələrək bir sıra hüquqi normalara konstitusion status yaradıb, eyni zamanda insan hüquq və azadlıqlarına təminatı gücləndirib.

Xalqın siyasi iradəsinin təcəssümü olan 2016-cı ilin 26 sentyabr referendumu ilə Konstitusiyaya edilmiş əlavə və dəyişikliklər zamanın tələbləri ilə uzlaşaraq insan hüquq və azadlıqlarına, habelə dövlət idarəçiliyi ilə bağlı bəzi normalara konstitusion status verib. Həmin referendum əsasında ölkəmizdə ilk dəfə olaraq vitse-prezident postunun təsis edilməsi mütərəqqi dünya təcrübəsinə əsaslanaraq, dövlət idarəçiliyinin modernləşdirilməsi məqsədindən irəli gəlib və bu yenilik ötən müddətdə özünü tam doğruldub.

Prezident İlham Əliyevin ötən 20 illik fəaliyyətində korrupsiyaya qarşı mübarizə, aşkarlıq və şəffaflığın təmini tədbirləri xüsusi yer tutub. 13 yanvar 2004-cü il tarixdə "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunu imzalayan dövlət başçısı bu sənəd əsasında hazırlanan "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)"nı 3 sentyabr 2004-cü il tarixli sərəncamı ilə təsdiq edib. Bundan əlavə, 28 oktyabr 2004-cü il tarixli fərmanı ilə Azərbaycan Respublikası baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin əsasnaməsi təsdiqlənib, qurumun səlahiyyət və funksiyaları müəyyən edilib, qısa müddətdə korrupsiyaya qarşı mübarizə sahəsində əhəmiyyətli nəticələr əldə olunub. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması korrupsiya və digər neqativ halların aradan qaldırılmasına xidmət edən mühüm addım olub.

Dövlət başçısı İlham Əliyevin "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə" 28 iyul 2007-ci il tarixli fərmanı ölkədə şəffaflığın təmin olunması, korrupsiyaya qarşı mübarizə tədbirlərinin davamlı xarakter daşıdığını təsdiqləyib. Strategiya Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində əldə edilmiş nailiyyətləri möhkəmləndirməyə, eləcə də dövlət orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulmasına xidmət edib. Şəffaflığın artırılması və açıq hökumətin təşviqi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq təcrübə mübadiləsi məqsədilə respublikamız 2011-ci ildə Açıq Hökumət Tərəfdaşlığına qoşulub.

Sonrakı mərhələdə dövlət başçısının 2012-ci il 5 sentyabr tarixli sərəncamları ilə "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üzrə Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üzrə Milli Fəaliyyət Planı"nın təsdiqi, 2010-cu ildə "Elektron Azərbaycan" dövlət proqramının qəbulu, 2011-ci il mayın 23-də "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" fərmanın imzalanması, dövlət orqanlarının fəaliyyətində elektron xidmətlərin təşkili, vahid elektron hökumət portalının (www.e-gov.az) yaradılması şəffaf və açıq cəmiyyət quruculuğu yolunda inamlı addımlar kimi xatırlanır. 2016-cı ildə təsdiq olunmuş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" da şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə baxımından mühüm vəzifələr müəyyənləşdirib.

İnsana xas ən ali duyğulardan olan humanizm hissinin cəza siyasətində öz əksini tapması vacib amillərdən biridir. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamı bu baxımdan böyük tarixi-mənəvi dəyəri olan sənəddir. Sərəncamla penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin təmin olunması, müasir texnoloji vasitələrin tətbiqi və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradılıb.

Azərbaycanda cəzaların icrası siyasətinin təkmilləşdirilməsində, humanizm prinsiplərinin bərqərar olunmasında, insan hüquqlarının dövlət qurumları ilə yanaşı, eyni zamanda vətəndaş cəmiyyəti institutları tərəfindən də qorunmasında, bu sahədə faydalı ictimai təşəbbüslərin irəli sürülməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da böyük xidmətləri vardır. İndiyə qədər Mehriban xanım Əliyevanın irəli sürdüyü 4 amnistiya təşəbbüsü əsasında on minlərlə məhbus həyatın ən böyük nemətlərindən olan azadlığa çıxıb, onların islah olunaraq normal cəmiyyətə qovuşmalarını təmin edib.

Ümumilikdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti ölkəmizdə insan və vətəndaş hüquq-azadlıqlarının etibarlı müdafiəsini, xüsusilə də bəzi dövlət qurumlarının laqeyd münasibəti ilə üzləşən aztəminatlı, həssas təbəqələrdən olan vətəndaşların qanuni mənafelərinin qorunmasını təmin edib.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunması doğma torpaqlarından didərgin düşmüş keçmiş məcburi köçkünlərin də konstitusion hüquqlarının bərpasına imkan yaradıb. Bununla yanaşı, Prezident İlham Əliyevin "Qərbi Azərbaycana Qayıdış" Konsepsiyası 1980-ci illərin sonuna yaxın Ermənistandan deportasiya edilmiş 250 min azərbaycanlının tarixi yurdlarına qayıdışı məsələsini Ermənistan qarşısında ciddi tələblərdən biri kimi müəyyənləşdirib.

35 illik nisgildən sonra bu il bütün əraziləri üzərində suverenliyini bərpa edən, Xankəndi və digər şəhərlərində üçrəngli Dövlət bayrağını qaldıran Azərbaycan yeni tarixi seçimə hazırlaşır. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinin ilk dəfə olaraq suveren, ərazi bütövlüyünü təmin etmiş Azərbaycan Respublikasının bütün ərazilərində keçirilməsi mümkün olacaqdır ki, bu da xalqımız üçün böyük qürur və fəxarət doğuran hadisə kimi dəyərləndirilməlidir.

Hər bir xalq məhz seçkilər vasitəsilə rəğbət və etimad göstərdiyi siyasi liderin fəaliyyətinə qiymət verir. Söhbət, əslində, ölkənin və xalqın sabit, dinamik inkişafının təkamül yolu ilə davam etdirilməsi prosesinə göstərilən real ictimai dəstəkdən gedir. 2003-cü ildə Ulu Öndər Heydər Əliyevin "Mən ona özüm qədər inanır və gələcəyinə böyük ümidlər bəsləyirəm" deyərək xalqa layiqli siyasi davamçısı kimi təqdim etdiyi cənab İlham Əliyev ötən 20 ildə cəmiyyət qarşısında verdiyi bütün vədləri yerinə yetirməyə nail olub, işğal faktına son qoymaqla, adını Azərbaycanın çağdaş tarixinə müzəffər sərkərdə kimi həkk edib.

Ötən tarixi inkişaf mərhələsinin möhtəşəm nəticələri fonunda xalqımızın qarşıdakı növbədənkənar prezident seçkilərində də məhz Prezident İlham Əliyevə etimad göstərəcəyini əminliklə söyləmək mümkündür. Bu əlahiddə seçimin eyni zamanda dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə perspektivdə Azərbaycanın daha qüdrətli, yüksək inkişaf etmiş, insan hüquq və azadlıqlarının təminatı sahəsində mühüm uğurlara imza atmış dövlətə çevriləcəyinə olan ictimai inamdan qaynaqlanacağı da şübhəsizdir.

Ad gününüz mübarək, xalqımızın qürur yeri olan cənab Prezident!

İsaxan VƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor